# Əfsanəvi artilleriya generalı Əliağa Şıxlinski



**Onu hərb elminə verdiyi töhfələrə və göstərdiyi xidmətlərə görə "Artilleriyanın Allahı" adlandırırdılar. İstər keçmiş sovetlərin, istərsə də Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğundakı misilsiz şücaətləri ilə Əliağa Şıxlinskinin adı dünya hərb tarixinin səhifələrinə qızıl hərflərlə yazılmışdır.**

Azərbaycan Xalq Cümhuriyyətində ordunun formalaşmasında böyük əməyi olan əfsanəvi sərkərdə, general Əliağa Şıxlinski 1865-ci il aprelin 23-də Yelizavetpol quberniyasının Qazax qəzasının Qazaxlı kəndində kiçik mülkədar ailəsində anadan olmuşdur. Anası Şahyəmən xanım Qayıbova görkəmli Azərbaycan şairi Molla Vəli Vidadinin nəvəsi idi. Çoxuşaqlı ailədə dünyaya gələn Əliağanın atasının arzusu onu hərbi məktəbdə oxutmaq olub. Elə bu məqsədlə də 1875-ci ildə oğlunu Tiflisə, Şahyəmən xanımın əmisi oğlu Mirzə Hüseyn Qayıbzadə Əfəndinin yanına göndərir. Dövrünün ziyalısı olan Mirzə Hüseyn Əfəndi kiçik Əliağanı himayəsinə götürərək təlim-tərbiyəsi ilə məşğul olur.

Əliağa Şıxlinski 1883-cü ildə rus ordusunda hərbi xidmətə başlamışdır. Qazandığı bilikləri onu Peterburq artilleriya məktəbinə aparmış, 1886-cı ildə oranı əla qiymətlərlə başa vurmuşdur. 1904-1905-ci illərdə isə rus-yapon müharibəsində batareya komandiri kimi vuruşaraq Port-Artur qalasının müdafiəsi zamanı göstərdiyi qəhrəmanlığa görə "Qızıl qılınc"la mükafatlandırılmışdır. Müharibə bitdikdən sonra topçu zabitlər hazırlayan məktəbdə dərs demişdir. 1908-ci ildə polkovnik rütbəsi alan Əliağa Şıxlinski "Səhra toplarının cəbhədə işlədilməsi" adlı dərs vəsaiti yazmışdır. 1910-cu ildə çap olunan kitabın ardınca onun "Şıxlinski üçbucağı", "Şıxlinski formulu" adlı hərbi yenilikləri də topçu zabitlər üçün hazırlanmış dərsliklərə daxil edilmişdi. Göstərdiyi şücaət və xidmətlərinə görə ona 1912-ci ildə general-mayor rütbəsi verilmişdir. O, Azərbaycanın ilk hərbi generallarından biri kimi çar ordusunun aparıcı mütəxəssisləri sırasında yer almışdır. Bundan başqa, "Müqəddəs Stanislav" ordeninin hər üç dərəcəsi ilə "Müqəddəs Anna" ordeninin hər dörd dərəcəsi ilə "Müqəddəs Vladimir" ordeninin 2, 3 və 4-cü dərəcələri ilə "Müqəddəs Georgi" ordeninin 4-cü dərəcəsi və bir sıra orden və medallarla, qiymətli hədiyyələrlə təltif olunmuşdur.

XX əsrin əvvəllərindən etibarən irimiqyaslı hərbi əməliyyatların iştirakçısı olan Əliağa Şıxlinski döyüş meydanlarında göstərdiyi şücaətləri və artilleriya nəzəriyyəsinə gətirdiyi yeniliklərı ilə hərb tarixində özünəməxsus yer tutmuşdur. O, Azərbaycan Xalq Cümhuriyyətinin mühüm dövlət təsisatları yaradılarkən milli qoşun hissələrinin təşkilində, müstəqil ordu quruculuğunda müstəsna fəaliyyət göstərmiş, ölkənin silahlı qüvvələrinin formalaşdırılmasına töhfələr vermişdir.

Birinci Dünya müharibəsində Petroqradın artilleriya müdafiəsi məhz general Əliağa Şıxlinskiyə tapşırılır. Qərb cəbhəsi artilleriya qoşunlarının rəisi, 1917-ci ilin sentyabrında 10-cu ordunun komandanı təyin edilmişdir. Yarım əsrlik bir dövrdə nizami orduda qüsursuz xidmət edən Əliağa Şıxlinski dörd müharibənin şahidi, üçünün isə iştirakçısı olmuşdur. Onun əvəzsiz xidmətlərindən biri də 1917-ci ildə Tiflisdə azərbaycanlılardan ibarət milli korpus yaratmasıdır. Onun bu təşəbbüsü Azərbaycan Silahlı Qüvvələrinin təməl daşına çevrilmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra Əliağa Şıxlinski vətəninə qayıtmış, elə həmin il iyunun 26-da təsis edilmiş ilk milli korpusun komandanı təyin olunmuşdur. 1920-ci il martın 9-da Azərbaycan Xalq Cümhuriyyətində ilk dəfə onun təşəbbüsü ilə Qızıl Aypara Cəmiyyəti yaradılmışdır. Artilleriya generalı Əliağa Şıxlinski Cümhuriyyətin süqutuna kimi Azərbaycanın hərbi naziri Səməd bəy Mehmandarovun müavini vəzifəsində çalışmışdır. Qısa zaman ərzində hər iki şəxsiyyətin gərgin əməyi nəticəsində Azərbaycan ordusu yaradılmışdır. 1927-ci ildə rus imperiyası Azərbaycanı işğal edəndə Səməd bəy Mehmandarov xəstə olduğu üçün nazir vəzifəsini Əliağa Şıxlinski icra etmişdir. Əliağa Şıxlinski 72 minlik düşmən qoşunu ilə vuruşmağın mümkün olmadığını nəzərə alaraq minalanmış körpülərin partladılmasına icazə verməmişdir. İşğaldan sonra imperiya qüvvələri Azərbaycan Ordusunu hissə-hissə dağıtsalar da, hər iki dahi şəxsiyyətə - Səməd bəy Mehmandarov və Əliağa Şıxlinskiyə toxunmamışlar. Çünki hər ikisi əvəzolunmaz hərbçi idilər.




General Əliağa Şıxlinski 1918-ci ilin oktyabrında Gəncədə yeni yaratdığı Milli Azərbaycan Korpusunun əsgərləri qarşısında çıxış edərkən demişdi: "Azərbaycanlılar birdəfəlik bilməlidirlər ki, doğma ordu əsla tənbəlxana deyil və onun mövcudluğu hər hansı bir azərbaycanlının maddi rifahını daha da yaxşılaşdırmaq üçün yaranmayıb. Ordu xalqın istinadgahıdır - bura xalqın ləyaqətli oğulları gəlməlidir". Həmin tədbirdə Qafqaz Ordusunun baş komandanı Nuri Paşa, atası Hacı Əhməd, xalq təhsili naziri Nəsib bəy Usubbəyov, daxili işlər nazirinin vəkili Mehdi bəy Hacınski, sosial-təminat naziri Musa bəy Rəfiyev, Gəncə qubernatoru, general İbrahim ağa Vəkilov və başqa dövlət xadimləri iştirak etmişdilər.

Əliağa Şıxlinski bir müddət Moskvada Hərbi İnqilab Sovetinin Səhra Qərargahında çalışır. 1921-ci ilin yayında isə Azərbaycan Sovet Qoşunları Qərargahına göndərilir. Bakı Qarnizonu Hərbi Elmi Cəmiyyətinin sədr müavini işləyən general sonradan Qafqaz Ordusu Hərbi İnqilab Şurası yanında Azərbaycan Hərbi Nəşriyyat Kollegiyasının sədri olur. 1928-ci ildə "Rusca-Azərbaycanca qısa hərbi lüğət" çap etdirən Şıxlinski məhz buna görə, SSRİ Hərbi İnqilab Şurasının Fəxri fərmanı ilə təltif edilir. 1929-cu ildən istefaya çıxan general-leytenant bir çox orden və medallarla, Fransanın yüksək hərbi ordenləri ilə təltif edilib.

Öz həyat təcrübəsini və keçdiyi hərbi yolu qələmə alan Əliağa Şıxlinski 1942-ci ildə "Xatirələrim" adlı memuar yazır. Kitab generalın ölümündən doqquz ay sonra 1944-cü ildə çap olunur. Böyük sərkərdə, hərb elminin bilicisi Əliağa Şıxlinski 1943-cü il avqustun 18-də kardiosklerozdan vəfat edir. Onun dəfn mərasimini isə filosof alim Heydər Hüseynov təşkil edir. Deyilənlərə görə, filosof-alim Heydər Hüseynovun Şıxlinskinin şəxsiyyətinə, sərkərdəlik fəaliyyətinə, elmi-publisistik yaradıcılığına böyük rəğbəti olub.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**